

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 11 (23.423)

21 yanvar 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər Xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad ediblər.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Vətənin azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən insanların sosial müdafiəsi, pensiya təminatı həmişə dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və həmin hadisə zamanı sağlamlığını itirən şəxslərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncamlar və fərmanlar verib. Bundan başqa, məhdud fiziki şəxslərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Ötən il bu kateqoriyadan olanlara və şəhid ailələrinə yeni mənzillər verilib ki, onların arasında 20 Yanvarda sağlamlığını itirənlər və şəhid ailələri də var. 20 Yanvar faciəsində şəhid olan şəxslərin ailələrinə Prezident təqaüdü verilir. Şəhid ailələrinin, məhdud fiziki şəxslərin sosial təminatı ildən-ilə daha da yaxşılaşdırılır.



# Naxçıvanda 20 Yanvar faciəsinin otuzuncu ildönümü yad edilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2019-cu il dekabrın 13-də "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" Sərəncam imzalamış, ölkəmizdə 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş anma mərasimlərinin keçirilməsi qərara alınmışdır.







Yanvarın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qanlı Yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər Xiyabanına gəlmişdir.

Ali Məclisin Sədri xiyabandakı Ana abidəsinin önünə əklil qoymuş, şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir.

Sonra Dövlət Himni səslənmişdir.

Ali Məclisin Sədri şəhidlərin məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türk ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək güllər qoymuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, nazirlik, komitə və digər mərkəzi təşkilatların, məhkəmə, hüquq-mühafizə orqanlarının, hərbi hissələrin, elm, təhsil, mədəniyyət və səhiyyə müəssisələrinin kollektivləri, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, ictimai təşkilatların və yaradıcılıq birliklərinin, kütləvi informasiya vasitələrinin əməkdaşları, şəhər sakinləri şəhidlərin əziz xatirəsini ehtiramla yad etmişlər.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun hissələri və xüsusi təyinatlılar tərəfindən Bakı şəhərində dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür. Faciə zamanı 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almışdır.

Bu qanlı hadisənin törədilməsində əsas məqsəd azadlıq, suverenlik uğrunda mübarizə aparan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını əzmək idi. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"20 Yanvarda Azərbaycanın azadlıqsevər, vətənpərvər insanları xalqımıza qarşı göstərilən ədalətsizliyə görə, Azərbaycan torpaqlarına erməni silahlı qüvvələrinin təcavüzünün qarşısı alınmadığına görə və milli azadlığa nail olmaq üçün ayağa qalxdılar, etirazlarını bildirdilər. Onları boğmaq üçün, əzmək üçün Sovet İttifaqının qoşunları, Sovet ordusunun hissələri ölkəmizə basqın etdi. Ancaq qəhrəman övladlarımız özünü qurban verərək Azərbaycan xalqının milli azadlığı üçün, Azərbaycanın müstəqilliyi üçün yol açdılar".***

Ümummilli liderimiz yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək xalqımıza qarşı törədilən qanlı cinayətə ilk dəfə etirazını bildirmiş, bəyanatla çıxış edərək faciəni törədənlərin məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Həmin dövrdə Sovet imperiyasının rəhbərliyi tərəfindən ciddi nəzarət altında saxlanılmasına baxmayaraq, ulu öndərimizin bu cəsarətli addımı, qətiyyətli mövqeyi Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizə əzmini daha da artırmışdır.

Qanlı Yanvar faciəsi Azərbaycan xalqının azadlıq istəyinin qarşısını almaq cəhdi ilə yanaşı, həm də ermənilərin işğalçılıq siyasətinin həyata keçirilməsinə xidmət edən terror aktı idi. Ermənilərin faciədən bir neçə gün əvvəl Naxçıvana hücumları bunu bir daha təsdiq edir. 1990-cı il yanvarın 18-də Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olundu. Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə altında qaldığından, beynəlxalq Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti 1990-cı il yanvarın 19-da "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" tarixi Qərar qəbul etdi. Bu qərara əsasən Naxçıvan MSSR Sovet imperiyasının tərkibindən çıxdı. 1990-cı il yanvarın 20-də, Qanlı Yanvar hadisələrinin törədilməsindən 8 saat əvvəl Sədərəyə erməni silahlı dəstələrinin hücumları başladı və bununla da 20 Yanvar faciəsinin ilk qanlı səhifəsi yazıldı.

Ulu öndərimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərdiyi dövrdə 20 Yanvar faciəsinə ilk dəfə siyasi qiymət vermişdir. Dahi şəxsiyyətin rəhbərliyi ilə Ali Məclis 1990-cı il 21 noyabr tarixli "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar qəbul etmiş, həmin qərarda 20 Yanvarın hər il Naxçıvan Muxtar Respublikasında "Milli Matəm Günü" kimi qeyd olunması əksini tapmışdır. 1992-ci il yanvarın 13-də isə daha bir tarixi addım atılmış, "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin bəyanatı" qəbul olunmuşdur.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqət mərkəzində saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Azərbaycan dövlətinin iqtisadi, siyasi və hərbi qüdrətinin günbəgün artması, haqq səsimizin beynəlxalq tribunalardan səslənməsi xalqımızın bir daha faciələrlə, soyqırımlarla sınağa çəkilməyəcəyinə təminat verir.

Bugünkü müstəqil, qüdrətli Azərbaycan şəhidlərimizin ruhuna ehtiramın ən yüksək ifadəsidir. 20 Yanvar isə qəhrəmanlıq tariximizdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" imzaladığı Sərəncamda da qeyd olunduğu kimi: ***"1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı***

Ardı 2-ci səhifədə





***ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar”.***

Tədbirdən sonra Ali Məclisin Sədri Xatirə Muzeyinə gəlmişdir.

Məlumat verilmişdir ki, muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar mühafizə və nümayiş etdirilir. Muzeyin fondundakı 2 minə yaxın eksponat xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilmişdir.

Ali Məclisin Sədri Xatirə Muzeyində məktəblilərin iştirakı ilə açıq dərslərin keçilməsi və qəhrəmanlıq tariximiz barədə gənc nəslin məlumatlandırılmasının vacibliyini vurğulamışdır.

Həmin gün saat $12^{00}$-da muxtar respublikada şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Naxçıvan Muxtar Respublikasının rayon mərkəzlərində də 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Muxtar respublikamızın bütün rayonlarında 20 Yanvar şəhidlərinin əziz xatirəsi ehtiramla anılıb

## *Şərur rayonu*



*XX əsrin təlatümlü 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində xalqımız öz müstəqil dövlətini yaratmaq uğrunda milli azadlıq mübarizəsinə qalxmışdı. Xalq hərəkatının genişlənməsi imperiya rəhbərlərini qorxuya saldı. Onlar bu hərəkatı boğmaq, xalqı yolundan döndərmək üçün müxtəlif planlar hazırlayıb həyata keçirdilər.*

İmperiya bu planlarına Naxçıvandan başlamaq istədi. Bunun üçün 1990-cı ilin yanvarında ermənilərin Naxçıvan ərazisinə hücumu təşkil edildi. Muxtar respublikanın müxtəlif bölgələrində ilk şəhid məzarları qazıldı. Polis kapitanı, sonradan Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Məhərrəm Seyidov, böyük şücaət göstərən Mirhəşim Seyidov yüzlərlə insanın iştirakı ilə dəfn edildilər. Lakin Naxçıvan əhalisi işğalçılara qətiyyətli müqavimətini davam etdirdi, onların muxtar respublikaya soxulmaq cəhdlərinin qarşısı alındı.

Həmin vaxt imperiya qoşunları respublikanın paytaxtı Bakı şəhərində də qanlı faciələr törətdilər. Dörd tərəfdən şəhərə hücum edən ağır texnika və əsgərlər hara gəldi atəş açdı, dinc əhali amansızcasına qətlə yetirildi.

Xalqın belə çətin anında ona arxa duran, Azərbaycanın haqq səsini dünyaya ilk dəfə çatdıran ümummilli lider Heydər Əliyev oldu. Həmin vaxt ittifaq rəhbərləri tərəfindən ona qarşı olan təzyiq və təsirlərin daha da artacağını bilsə də, ulu öndər özünəməxsus qətiyyət və cəsarətlə bu faciəyə öz kəskin etirazını bildirdi. Dahi rəhbər Sovet İttifaqı kimi nəhəng imperiyanın dünyaya meydan oxuduğu bir vaxtda cəsarətlə deyirdi ki, Azərbaycanda törədilmiş bu qanlı faciəyə hüquqi-siyasi qiymət verilməlidir. Lakin Azərbaycanın ovaxtkı rəhbərləri bu barədə nəinki düşünmür, əksinə, ölənlər və yaralananlar haqqında məlumatları belə gizlətməyə çalışırdılar. Nəhayət, ümummilli liderimiz doğma Vətənə gəldi, Azərbaycan SSR Ali Sovetinə və muxtar respublika Ali Məclisinə deputat seçildi. Ulu öndər tərəfindən hazırlanmış “1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” Qərar layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il noyabrın 21-də keçirilən sessiyasında yekdilliklə qəbul edildi.

Yalnız ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra məhz Onun rəhbərliyi ilə 1990-cı ilin 20 Yanvar hadisəsi totalitar rejimin Azərbaycan xalqına hərbi təcavüzü və cinayəti kimi qiymətləndirilmişdir. Dahi şəxsiyyətin göstərişi ilə həyata keçirilən tədbirlər nəticəsində şəhid məzarları müqəddəs səcdəgahlara çevrilmiş, şəhid adlarının əbədiləşdirilməsi üçün bir sıra işlər görülmüş, Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə “20 Yanvar şəhidi” Fəxri adı təsis edilmiş, şəhid ailələri, hadisə nəticəsində sağlamlığını itirmiş şəxslər dövlət qayğısı ilə tam əhatə olunmuşlar.

Qanlı 20 Yanvar hadisələrindən 30 il keçir. Bununla bağlı ölkə Prezidenti 2019-cu il dekabrın 13-də 20 Yanvar faciəsinin 30 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb. Bu, Vətənin azadlığı və suverenliyi, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçmiş oğul və qızlarımızın xatirəsinə dərin ehtiramın ifadəsidir.

20 Yanvar – Ümumxalq Hüzn Günü ilə əlaqədar Şərur rayonunun sakinləri rayon mərkəzindəki Şəhidlər Xiyabanına gələrək şəhid məzarlarına tər qərənfillər düzüblər.

Həmin gün Azərbaycanın Milli qəhrəmanları Məhərrəm Seyidovun Şərur şəhərindəki, Səyavuş Həsənovun Yengicə kəndindəki büstləri, Kərim Kərimovun Qarahəsənli kəndindəki məzarı da ziyarət edilib.

## *Babək rayonu*



*20 Yanvar faciəsi xalqımızın tarixinə şərəf və qürur günü kimi yazılıb. Ölkəmizin azadlığını, milli ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları 30 il bundan əvvəl öz canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Ürəkləri daim Vətən sevgisi ilə döyünən bu qəhrəman oğullarımızın qanı bahasına uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq, ölkəmiz suverenlik əldə etdi.*

20 Yanvar məzmunca terror aksiyası, qanlı faciə, bəşəriyyət qarşısında cinayət, xalqımıza qarşı yönəldilmiş açıq hərbi təcavüz idi. Törədilmiş faciə nə qədər ağır olsa da, bu, azadlıqsevər xalqımızın mübarizliyini bir daha ortaya qoydu. Azərbaycan xalqının milli oyanışını, ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda mübarizəsini sındırmaq məqsədi daşıyan bu mənfur planın həyata keçirilməsi imperiyanın iç üzünü açdı.

Yanvarın 20-də Babək rayon ictimaiyyətinin nümayəndələri Babək qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin qarşısına gələrək onların ölməz xatirəsinə ehtiramlarını bildirib, abidə önünə gül-çiçək düzüblər.

Onu da qeyd edək ki, xalqımız həmin gün 20 Yanvar hadisələrinin beynəlxalq səviyyədə əsl qətliam kimi tanınmasında, faciəyə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilməsində əvəzsiz xidmətləri olan ümummilli liderimiz Heydər Əliyevin də əziz xatirəsini dərin ehtiramla yad edir.

20 Yanvar faciəsi şərəf və qürur, qeyrət və qəhrəmanlıq tariximizdir. Aradan 30 il keçməsinə baxmayaraq, xalqımız həmin tarixi böyük qürur hissi ilə xatırlayır. Müstəqilliyimizin, suverenliyimizin, torpaqlarımızın ərazi bütövlüyü uğrunda 50-dən çox babəkli şəhid olub. Bu qəhrəman Vətən övladlarının xatirəsi dövlətimiz tərəfindən hər zaman uca tutulur, şəhid ailələrinə hərtərəfli qayğı göstərilir. Bu yaxınlarda Ali Məclisin Sədri tərəfindən Babək rayonundakı şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyü uğrunda sağlamlıq imkanlarını itirmiş şəxslərə avtomobil və mənzillərin verilməsi də deyilənlərə bariz nümunədir.

## *Ordubad rayonu*

*Azərbaycan xalqına qarşı törədilən 20 Yanvar faciəsindən 30 il ötür. Bu tarix şərəfli mübarizə günü kimi əbədiləşib. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun xüsusi təlim keçmiş, əsasən, ermənilərdən ibarət olan qoşun hissələri Bakıya yeridilərək dinc əhaliyə qarşı misligörünməmiş vəhşiliklər törətmiş, insanları öldürmüş, yaşayış evləri atəşə tutulmuş, təcili yardım maşınları, avtomobillər tanklar tərəfindən əzilmiş, yaralılara yardım göstərən tibb işçiləri güllələnmişdir.*



Sovet qoşunlarının 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törətdikləri qanlı cinayətlər, eyni zamanda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərində erməni silahlı dəstələrinin fəallaşması ilə müşayiət olunmuşdu. Heç kimdən kömək görməyən, blokada alınmış Naxçıvan əhalisi düşmənlə mübarizə apararaq muxtar respublikanı işğal olunmaq təhlükəsindən qoruyub saxlaya bilmişdi.

20 Yanvar faciəsinə ilk dəfə öz etirazını bildirən, xalqın ən ağır günlərində onunla bir olan da məhz ümummilli liderimiz oldu. Ulu öndər 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək faciəni törədənlərə qarşı kəskin və haqlı ittiham irəli sürmüş, qoşunların Bakıdan çıxarılmasını tələb etmişdi. 20 Yanvar faciəsinə ilk siyasi qiymət ulu öndərimiz tərəfindən verilmişdir.

Görkəmli dövlət xadiminin siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, həmin qanlı gecədə sağlamlıqlarını itirənlərin sosial müdafiəsinin gücləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir.

Ordubad rayonu Azərbaycanın ərazi bütövlüyü və azadlığı uğrunda 47 şəhid vermişdir. Uzun illər keçsə də, rayon sakinləri qəhrəman Vətən övladlarını unutmur, onların xatirəsini hər an müxtəlif tədbirlərlə yad edirlər.

20 Yanvar hadisəsi zamanı Ordubad rayonunda doğulub boya-başa çatmış və Azərbaycan Neft və Kimya İnstitutunda təhsil alan 19 yaşlı Rahim Babayev də qəhrəmanlıqla şəhid olmuşdur.

Yanvarın 20-də muxtar respublikamızın hər yerində olduğu kimi, Ordubad şəhərindəki Şəhidlər Xiyabanında da 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Rayon ictimaiyyətinin nümayəndələri səhər saatlarından Ordubad şəhərindəki Şəhidlər Xiyabanına gələrək onların xatirəsini ehtiramla yad etmiş, məzarları üzərinə tər qərənfillər düzmüşlər.

*Ardı 3-cü səhifədə*

## Culfa rayonu



*Hər il olduğu kimi, bu il də 20 Yanvar – Ümumxalq Hüzn Günündə muxtar respublikamızın hər yerində olduğu kimi, Culfa rayonunda da Vətən və xalq yolunda həlak olan şəhidlərin xatirəsi dərin ehtiramla anılmışdır.*

Sakinlər şəhidlərin əziz xatirəsini yad etmək üçün rayon mərkəzində – Heydər Əliyev prospektində yerləşən Şəhidlər Abidə Kompleksinə gəlmiş, abidə önünə tər qərənfillər düzüb öz ehtiramlarını bildirmişlər.

30 il bundan əvvəl – 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı kütləvi qırğın törədilmiş, nəticədə, 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almış, 841 nəfər qanunsuz həbs edilmişdir. Bu qətliamla 1948-ci ilin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 1966-cı ilin Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı, ATƏM-in 1989-cu il Vyana görüşünün son qərarı, hərbi əməliyyatların aparılmasını tənzimləyən qüvvədə olan müqavilələr, əsasən də, 1980-ci ilin döyüş zamanı yüngül fırlanan və yayılan güllələrin istifadə edilməməsi Bəyannaməsi də daxil olmaqla, qüvvədə olan bütün insan hüquqlarına əsaslanan beynəlxalq müqavilələr kobudcasına pozulmuşdur.

Qanlı Yanvar faciəsində qətlə yetirilənlərin, sağlamlıqlarını itirənlərin, şəhid ailələrinin problemlərinin dövlət səviyyəsində həlli istiqamətində böyük tədbirlər həyata keçirilir. 2006-cı il yanvarın 19-da ölkə başçısının Fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edildi. Dövlət başçısının Şəhidlər Xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı Sərəncamı Vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsinə çevrildi. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun “20 Yanvar” stansiyasının üzərindəki dairədə xatirə kompleksinin yaradılması, 2010-cu il yanvarın 20-də isə Bakının Yasamal rayonundakı “20 Yanvar” dairəsində memorial abidə kompleksinin açılışı oldu.

Vətən naminə, dövlət müstəqilliyi, Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da daim əziz tutulur, onların adlarının əbədiləşdirilməsi, keçdikləri şanlı döyüş yolunun təbliği, ailələrinin sosial problemlərinin həlli diqqət mərkəzində saxlanılır.

Böyük amallar uğrunda canlarından keçən, 20 Yanvar şəhidləri naxçıvanlıların da yaddaşında əbədi yaşayır. Çünki onlar tək öz ata-anaların deyil, hər bir azərbaycanlının övladlarıdır.

Həmin günlər imperiyanın silahlandırdığı ermənilər ümumi plan üzrə muxtar respublikanın sərhəd kəndlərinə hücumlarını fəallaşdırmışdılar. 20 Yanvar faciəsi ərəfəsində və sonrakı dövrlərdə müqəddəs torpağımızı mərdliklə qoruyan naxçıvanlılar yüzlərlə şəhid verərək bu qədim Azərbaycan torpağını alınmaz qalaya və düşmənin gözdağına çevirdilər.

## Kəngərli rayonu



*Xalqımızın tarixinə qəhrəmanlıq günü kimi yazılmış 20 Yanvar faciəsinin 30-cu ildönümü Kəngərli rayonunda da qeyd olunub. Yanvarın 20-də rayon sakinləri Qıvraq qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidənin qarşısından keçərək onları dərin ehtiramla yad edib, abidə önünə tər çiçəklər düzüblər.*

Xatırladaq ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda Kəngərli rayonundan da 36 nəfər şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan xalqının yaddaşına Qanlı Yanvar faciəsi kimi daxil olmuş o müdhiş gecə insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaqdır. Ölkəsinin milli azadlığı və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar xislətini bütünlüklə ifşa etdi. Azərbaycan xalqının mübarizə əzmini qırmaq, onun suverenlik istəyini sarsıtmaq mümkün olmadı.

Qeyd edək ki, 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymət ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən verilib. Məhz ulu öndərin ikinci dəfə hakimiyyətə qayıdışından sonra 1990-cı ilin 20 Yanvar hadisəsi Sovet imperiyasının Azərbaycan xalqına hərbi təcavüzü və cinayəti kimi qiymətləndirildi. Dahi şəxsiyyətin göstərişi ilə həyata keçirilən tədbirlər nəticəsində şəhid məzarları müqəddəs ziyarətgahlara çevrildi, şəhid adlarının əbədiləşdirilməsi üçün konkret işlər görüldü. Ölkə başçısının fərmanı ilə “20 Yanvar şəhidi” Fəxri adı təsis edildi, şəhid ailələri dövlət qayğısı ilə tam əhatə olundu.

Heydər Əliyev siyasətini ardıcıllıqla və qətiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, sağlamlıq imkanlarını itirənlərin sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar qəbul edilib.

## Şahbuz rayonu



*Xalqımızın qan yaddaşına yazılan 20 Yanvar faciəsi tariximizin qəhrəmanlıq səhifəsi, iftixar günüdür. Yanvarın 19-dan 20-nə keçən gecə tökülmüş qanlar Azərbaycan xalqının müstəqillik uğrundakı mübarizə əzmini qıra bilməmiş, igid oğullarımız şəhidlik zirvəsinə yüksələrək xalqımızın yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini bütün dünyaya nümayiş etdirmişdir.*

Faciədən 30 il ötməsinə baxmayaraq, ağır bədən xəsarətləri almış, əmək qabiliyyətlərini itirmiş insanlar bu faciənin ağrılarını hələ də öz üzərlərində daşıyırlar.

Yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet ordusunun hərbi hissələri Bakı şəhərində müstəqil dövlət yaratmaq və suverenliyini əldə etmək üçün ayağa qalxan dinc əhaliyə qarşı misligörünməmiş qətliam törədib. Bu qanlı cinayət insanların azadlıq eşqini söndürə bilməyib, xalqımız qanı bahasına da olsa, öz dövlət müstəqilliyinə qovuşub. Həmin gün sovet rejiminin hərbi təcavüzünə məruz qalmış xalqımız öz qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bir daha göstərmişdir. Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misligörünməmiş vəhşiliklərlə müşayiət edilmişdir. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirmişdir.

Milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar faciəsi xalqımızın suverenliyi uğrunda apardığı mübarizənin şərəf tarixidir.

Bu faciə, eyni zamanda həm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunub. Həm də əbədi olaraq!

20 Yanvar günü Şahbuz rayon ictimaiyyətinin nümayəndələri, ziyalılar və sakinlər də faciə qurbanlarına ehtiramlarını bildirərək anım tədbirində iştirak edib, Şahbuz şəhərindəki Şəhidlər Abidə Kompleksindəki abidə önünə tər qərənfillər düzüblər.

## Sədərək rayonu



*20 Yanvar faciəsinin 30-cu ildönümü Sədərək rayonunda da anılıb. Rayon sakinləri Sədərək kəndindəki Şəhidlər Xiyabanını ziyarət edərək Vətən yolunda qurban getmiş insanların xatirəsinə ehtiramlarını bildiriblər.*

1989-cu ilin dekabr ayında muxtar respublikada sərhəd dirəklərinin sökülməsi Moskvanı bərk hiddətləndirmişdi. Qısa müddət sonra mərkəz Azərbaycan xalqının azadlıq istəyini boğmaq üçün imperiya qoşunlarını Bakıya yeridərək qanlı 20 Yanvar qırğınını törətdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan hələ 8 saat əvvəl ermənilər keçmiş sovet qoşunlarının köməyi ilə muxtar respublikaya hücuma keçdilər. Sədərək, Günnüt və Havuş kəndləri 1990-cı il yanvarın 19-da səhər, təxminən, saat 11-dən etibarən intensiv hücumlara məruz qaldı. Həmin vaxt ermənilər əsas qüvvələrini Sədərək istiqamətinə yönəltmiş və Kərki kəndini işğal etmişdilər. Sədərək intensiv top atəşinə tutulmuş, kənddə ilk şəhidlər verilmişdi.

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən artıq otuz il keçir. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaqdır.

Qeyd olunmalıdır ki, Sovet ordusunun böyük heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi görünməmiş qəddarlıq və vəhşiliklə müşayiət edilirdi.

Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar siyasəti və keçmiş SSRİ rəhbərliyinin onlara himayədarlığına öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı Sovet ordusunun xüsusi təlim keçmiş hissələrindən istifadə olunması 1990-cı ilin 20 yanvarında qanlı faciəyə gətirib çıxardı.

Ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları həmin gün canlarından keçərək şəhidlik zirvəsinə ucaldı. Böyük itkilərlə, günahsız insanların qətlə yetirilməsi ilə nəticələnən bu faciə, eyni zamanda xalqımızın mübarizliyini, əyilməzliyini və məğrurluğunu bir daha nümayiş etdirdi. Həmin dövr Sədərək sakinləri üçün heç də asan olmadı.

Ümumilikdə, mənfur ermənilər 1990-1993-cü illərdə Sədərəyə 14 dəfə hücum edib, 1990-cı ilin martında bu sərhəd bölgəsinə 300-ə yaxın top mərmisi atıblar. Bu qeyri-bərabər döyüşlərdə 500-ə yaxın ev, məktəb binaları, ictimai-inzibati binalar, sosial obyektlər dağıdılıb. Həmin ağır günlərdə sədərəklilərə muxtar respublikamızın hər yerindən, həmçinin ölkəmizin 14 rayonundan kömək gəlib, döyüşlərdə 109 nəfər şəhidlik zirvəsinə ucalıb. Sədərək bu bölgədə doğulub boyabaşa çatan və şəhidlik zirvəsinə ucalan 52 vətənpərvərin yurd yeridir. Onların xatirəsi Sədərəkdə daim uca tutulur.

**Xəbərlər şöbəsi**



## Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib

*20 Yanvar şərəfli tariximizin qan yaddaşına yazılıb. Bu faciə Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar, bugünkü müstəqil Azərbaycan dövlətinin tarixinə həmin faciəni şərəf və qəhrəmanlıq səhifəsi kimi yazdılar.*

O gün Azərbaycanın Vətən yolunda öz canlarından keçən, şəhidlik kimi uca bir zirvəni fəth edən, ölümsüzlüyə yüksələn oğul və qızlarının məzarları bu gün müqəddəs ziyarət yerlərinə çevrilib.

30 ildir ki, şəhidlərimizin ruhuna hörmət əlaməti olaraq məzarları ziyarət edilir, onların keçdikləri şərəfli ömür yolunun yeniyetmə və gənclərimizə örnək olmasını bir daha xatırlatmaq üçün məqsədyönlü tədbirlər həyata keçirilir.

Hər il olduğu kimi, bu il də yanvarın 20-də saat $12^{00}$-da Azərbaycanın bütün ərazilərində, o cümlədən Naxçıvan Muxtar Respublikasında da doğma yurdunun, xalqının azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Nəqliyyatın, xətdə olan sərnişin qatarlarının və piyadaların hərəkəti 1 dəqiqəlik dayandırılıb, avtomobillərdən və qatarlardan səs siqnalları verilib.

**Xəbərlər şöbəsi**

# Haqq işi həmişə qalib gəlib

*Dünən güllələr, bu gün güllər açılan bu oğuz yurdunun üstünü ötən əsrin 80-ci illərinin sonlarında qara buludlar aldı. O buludların gətirdiyi faciələr bu torpağı qanla boyadı. 14 dəfə erməni hücumuna məruz qalan, 108 igid eloğlumuzun şəhidlik zirvəsinə ucaldığı Sədərəyə ermənilər 300-ə yaxın top mərmisi atdılar, 500-ə yaxın evi, məktəb binalarını, ictimai-inzibati binaları, sosial obyektləri dağıtdılar.*

*O illəri xatırlayanda ulu öndərin sözləri yada düşür:* ***“Muxtar respublikanın sərhəd kəndləri dəfələrlə silahlı təcavüzə məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsas ağırlıq həmişə Sədərəyin üzərinə düşmüşdür. Sədərək kəndində vəziyyət tamam başqadır. Burada əsl müharibə gedib, atışmalar olub”.***

... Sədərəyin tarixi taleyinə erməni adlı mənfur düşmənlə qonşuluq qisməti yazılıb. Yüz illər boyu özlərinin çirkin əməllərini gah gizli, gah da aşkarda həyata keçirən daşnakların 1988-ci ildə yenidən üzə çıxan əsassız torpaq iddiaları, həmin iddiaların yaratdığı məlum hadisələr bu sərhəd bölgəsinin sakinlərinin də sərhədçi ömrü yaşamaları ilə nəticələndi. Ata-baba əmanəti olan bu oğuz yurdunun qorunması, düşmən tapdağına çevrilməməsi üçün Sədərəklə birgə bütün Naxçıvan da ayağa qalxdı. Ölkəmizin bəzi bölgələrindən də buraya könüllülər köməyə gəldilər. O ağır illərdə






Sədərək itkilər versə də, qəhrəmanlıqla qorundu, “Torpaq, uğrunda ölən varsa, Vətəndir!” – deyib səngərlərə atılaraq “Təki Vətən sağ olsun!” amalı ilə ölümün gözünə dik baxdı eloğlularımız. Bu mücadilədə sağlamlığını itirən, öz ev-eşiyinə qazi kimi qayıdanlar da az olmadı. Ona görə də, mənim düşüncəmdə, ölkəmizin müqəddəs yurd yerlərindən biridir Sədərək. O illər sədərəklilərin yaddaşında əbədi yaşadığı kimi, rayonun Tarix-Diyarşünaslıq Muzeyində də yaşadılır.

... Muzeydə Sədərəyin qəhrəmanlıq tarixini bir daha xatırladım. Bu tarixin izləri bir neçə guşədə öz əksini tapıb. İlk olaraq Azərbaycan Respublikası Prezidentinin “20 Yanvar faciəsinin 30 illiyinin qeyd olunması haqqında” Sərəncamı ilə bağlı hazırlanmış guşəni gözdən keçirirəm. Ötən bu dövr ərzində ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda bu qanlı terror aktının ifşası, cinayətkarların məsuliyyətə cəlb olunması, faciə qurbanlarının ailələrinə göstərilən qayğı və digər məsələləri özündə əks etdirən qəzet, jurnal materialları, fotolar guşəyə ziyarətə gələnlərə qəhrəmanlıq tariximizdən söz açır. Burada yaradılmış “Sədərək Naxçıvanın qeyrət qalasıdır” adlı guşənin qarşısında dayanmışam. O illəri xatırlayıram. 1990-cı ilin yanvar ayında sovet ordusu Bakıya daxil olmamışdan 8 saat əvvəl ermənilərin Sədərəyə hücum etdiklərini gözlərim önünə gətirməyə çalışıram. O gün 8 şəhid verildi. Onlardan ikisi Malik və Elvin Nəsirov qardaşları idi.

İlk köməyə Ordubad və Şərur rayonlarından 40 könüllü gəldi. Döyüşlərə atılanlar sırasında polislər də böyük şücaət göstərirdilər. Onlara polis kapitanı Məhərrəm Seyidov başçılıq edirdi. Sonralar Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülən Məhərrəm Seyidov öz cəsurluğu ilə onlara bir nümunə gücündə idi. Döyüşlər daha çox şərab zavodunun arxasında yerləşən mebel sexinin yaxınlığında gedirdi. Qızıldaşda ermənilər 14 yerdə top qoymuşdular. Hava yolu məsafəsi 14 kilometr olan Qızıldaşdan Sədərəyə atılan top səsləri getdikcə güclənirdi. Bizimkilər 2 ədəd TOZ-8, 2 ədəd pulemyot, 4 ədəd ov silahı ilə ermənilərin qarşısını alırdılar. Sədərək uğrunda gedən döyüşlərdə vuruşan həmyerlilərimiz bir həqiqəti dərindən dərk edirdilər ki, düşmənin məqsədi, bütövlükdə, Naxçıvan Muxtar Respublikasını işğal etməkdir. Lakin erməni vandallarının bu arzusu ürəklərində qaldı. Ürəyi Vətən eşqilə döyünən soydaşlarımız bu qədim yurd yerinin bir qarış torpağını da onlara vermədilər.

... Muzeydəki “Vətən üçün yaşayıb, Vətən üçün ölənlər heç vaxt unudulmurlar” adlı guşənin qarşısında ayaq saxlayır, şəhidlik zirvəsinə ucalanların şəkillərinə baxıram. Baxışlar dil açıb danışır. Həmin baxışlarda sabaha böyük ümidlər var. Bu ümidləri doğrultmaqsa, bugünkü gəncliyin üzərinə düşür.

Muzeyin direktoru Sərxan Abbaslı deyir ki, rayonun ümumtəhsil məktəblərinin şagirdləri, müəllimlər tez-tez muzeyə gəlir, şəhidlərimizin, bu gün yaşayan müharibə veteranlarının keçdikləri ömür yolları ilə tanış olurlar. Rayon Mədəniyyət Şöbəsi o günlərin canlı şahidləri ilə tez-tez görüşlər təşkil edir. Belə görüşlər sədərəkli gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, dövlətçiliyimizə sədaqət hisslərinin gücləndirilməsində mühüm rol oynayır.

Sərxan müəllim deyir ki, Sədərək hadisələrini izləmiş bir jurnalist kəndə bəzi həyətlərdən tüstü qalxdığını görüb. Fikirləşib ki, müharibənin qanunudur, yəqin əks tərəfdən atılan silahlar düşdüyü yeri yandırır. Əsl həqiqətdə isə o vaxt Sədərəkdə qadınlar səngərdə döyüşən igid oğullarımıza təndir çörəyi bişirirdilər. Bu, insanların torpağa bağlılığının ən yüksək nümunəsidir.

Müsahibim bildirir ki, 1993-cü il avqust ayının 13-də axırıncı döyüşdə ermənilər Qeyrət qalasını qoruyan qeyrətli oğullara bata bilməyəcəklərini yəqin edərək geri çəkiliblər. Sədərək belə qorunub. Bu gün də qorunur. Özü də yüksək səviyyədə – həm dövlətimizin böyük qayğısı gücünə, həm torpaq təəssübünü, yurd sevgisini hər şeydən üstün tutan sədərəklilərin, həm də burada xidməti borcunu yerinə yetirən, sərhəddə ayıq-sayıq dayanan əsgərlərimizin hesabına. Bu məqamda istər-istəməz ulu Dədə Qorqudun aforizmə çevrilmiş sözlərini xatırlayırsan: “Torpağı qorumursansa, əkib-becərməyinə, əkib-becərmirsənsə, qorumağına dəyməz”. Sədərəkdə torpaq həm qorunur, həm də əkilib-becərilir.

Digər bir guşə “Nəsillər dəyişəcək, ancaq şəhidlərin xatirəsi əbədi yaşayacaq” adlanır. O vaxt səngərə çevrilən Əyyub mağazası, Cin təndiri, Yetimlər, Həsənqulu bağı, Qaraağac, Qurdbaba, Nadirin düzü kimi ərazilərdə döyüşən sədərəklilərin güc aldıqları yeganə qüvvə ümummilli liderimiz Heydər Əliyev idi. Ulu öndərimizin həmin illərdə dəfələrlə Sədərəyə gəlməsi, bölgə sakinlərinə tövsiyələrini verməsi təkcə Sədərəyi deyil, bütün Naxçıvanı erməni işğalından qorudu. Bu gündən sabaha ümidləri olmayan naxçıvanlılar da dahi şəxsiyyətin ətrafında sıx birləşdilər, hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına inandılar.

* * *

Muzeydə gördüklərimin yaratdığı təəssüratlarla oradan ayrılıram. Rayonun məktəblərində, məktəbdənkənar təhsil müəssisələrində, mədəniyyət ocaqlarında 20 Yanvar faciəsinin ildönümü ərəfəsində keçirilən tədbirlərlə tanış olmaq üçün həmin ünvanlara üz tuturam.

Sədərək kəndində fəaliyyət göstərən 1 və 2 nömrəli tam orta məktəblərin binaları son illərin yeni quruculuq ünvanlarındandır. Sərhəd bölgəsinin simasına xüsusi yaraşıq verən bu binalar, həmçinin digər kompleks quruculuq tədbirləri Sədərəkdə təmin olunmuş qaynar həyatdan, muxtar respublikanın sosial-iqtisadi inkişafından soraq verməklə bərabər, həm də bütün bunlar bir addımlıqda yaşayan düşmənə gözdağıdır. Bu gün həmin məktəblərdə təhsil alan uşaq, yeniyetmə və gənclərin, lazım gələrsə, ata-babalarının yolu ilə gedəcəklərinə heç bir şübhə yoxdur. Müəllimlərlə söhbətlərdə hiss etdim ki, bu gün şagirdlərə aşılanır ki, bizim mübarizəmiz haqq işidir. Haqq işi isə həmişə qalib gəlib. Öyrəndik ki, Sədərək hadisələri ilə bağlı dərs prosesində, məktəbdənkənar və sinifdənxaric məşğələlərdə söhbətlər aparılır, inşa yazı və rəsm müsabiqələri keçirilir. Hansı fənni tədris etməsindən asılı olmayaraq, bu gün məktəbin bütün müəllimləri bu işdə fəallıq göstərirlər. Odur ki, Sədərəyin məktəbyaşlı ən kiçik şagirdindən tutmuş yuxarı sinif şagirdlərinə qədər hamı Sədərək döyüşlərində şəhidlik zirvəsinə yüksələnlər haqqında ətraflı məlumatlara malikdir.

* * *

Sədərəyə gəlmişkən, buradakı hərbi hissədə də olduq. Zabitlər və əsgərlərlə söhbətləşdik. Onlar bildirdilər ki, Azərbaycanın hər qarış torpağı azərbaycanlılar üçün ata-baba mirasıdır. Heç nə ilə əvəz olunmayan ən qiymətli sərvətdir. Onu qorumaq bizim ən şərəfli borcumuzdur. Artıq düşmən ötən əsrin 90-cı illərinin əvvəllərindən fərqli olaraq bu gün Sədərəyə bir çöp belə, ata bilməz. Sədərəyi və ümumilikdə, Naxçıvanı güclü Azərbaycan Ordusu qoruyur.

✍ Muxtar MƏMMƏDOV

*Bu sərlövhə hər kəsin diqqətini çəkə, hələ “Bu yaşda tələbə olar?”, sualını yarada da bilər. 20 yanvar 1990-cı il, 30 il bundan əvvəl Bakıda günahsız insanlara qarşı törədilmiş faciə... Zaman ötsə də, illər bir-birinə əlvida deyib tarixi bir yaş yaşlandırsa da, həmin gün ömrü yarıda qırılanların hər biri yaddaşlarımıza o gündəki kimi həkk olunub: uşaq elə uşaqdır, heç böyüməyib, gənc heç yaşlaşmayıb, ahıl elə ahıldır, müəllim müəllim, həkimsə həkim. Eləcə də şəhid tələbələr.*

# 30 ilin tələbəsi...

*(esse)*




Yazı oxunduqca söhbətin həmişə xəyallarımızda Azərbaycan Tibb Universitetinin tələbəsi kimi qalan 20 Yanvar şəhidi Teymur Alməmmədovdan getdiyini biləndə hər kəsin ürəyi yenidən sızlayacaq, bu nakam tələbəni yanğı, eyni zamanda vüqar hissi ilə xatırlayacaqdır. 18 yaşda tələbə adını qazanıb, cəmi 4 ay tələbə həyatı yaşayan, 30 ilin tələbəsinə çevrilərək hər il yaddaşlarda təzələnən şəhid Teymuru… Onun ömür kitabına həkk olunan və ondan bu dünyaya xatirə qalan, sadəcə, bu tarixlərdir: 1972, 1989, 1990, bir də bu 30 il. 1972-də doğuldu, 1989-da arzusuna çatdı, tələbə adını qazandı, 1990-da ömrü kimi arzuları da yarımçıq qaldı. 30 ildir, şəhid olub. Lakin bu 30 ilbəil dəyişəcək, bir gün 100, 200 olacaq, Teymurun Vətən uğrunda şəhidlik salnaməsini qərinələrdən qərinələrə, əsrlərdən əsrlərə daşıyacaq.

Şahbuz rayonunun Keçili kəndində kasıb bir ailədə dünyaya göz açmışdı Teymur. Valideynlərinin hər ikisinin sağlamlıq imkanları məhdud idi. İki bacının bir qardaşı olan Teymur bacısı Bəstinin dediyi kimi, ata-analarının tək ümid yeri, arxa, dayaqları idi. Lap kiçik yaşlarından ailənin bütün qayğılarını çiyinlərində daşımaqdan vaxtından əvvəl yaşlaşmışdı sanki o. “Atamın bitib-tükənməyən tapşırıqları qarşısında nə dinər, nə danışar, başını aşağı salıb sakitcə dinləyər, sonra məktəbə gedər, gələr, axşamadək evin işindən-gücündən baş açmazdı. İşini bitirib evə girəndən gecə saatlarınadək dərs oxuyar, əlindən kitab düşməzdi. O vaxtlar kəndin mal-heyvanını hər gün bir nəfər çölə aparardı, atam xəstə olduğu üçün bizim evdən həmişə Teymur gedərdi, axşamdan kitablarını çöl çantasına yığıb hazırlayar, özü ilə apardı”, – deyir Bəsti.

Keçili kənd məktəbi rayonun təhsil ənənələri olan məktəblərindəndir. Bu gün ölkəmizin ictimai həyatında mövqe qazanmış onlarla hüquqşünas, müəllim, həkim və digər ixtisas sahibləri bu məktəbin yetirmələridir. Teymurun müəllimləri onu da bu yetirmələr arasında gördüklərini hələ o, aşağı siniflərdə təhsil alarkən söyləyirmişlər. Teymur təhsildə sinif yoldaşlarından fərqləndiyi kimi, səmimiyyəti, tərbiyəsi ilə də bütün müəllim və şagird kollektivinin sevimlisi imiş.

Teymurun biologiya müəllimi, hazırda təqaüddə olan Vaqif Kərimovun dediklərindən: – O, tamamilə fərqli bir şagird, özünəməxsus xarakteri olan uşaq idi. Bu özünəməxsusluq onun susqunluğunda, sakitliyində, adını çəkəndə, sual verəndə adamın gözünün içinə baxmadan, başıaşağı cavab verməsində idi. Bir də ki, onun üzündə-gözündə daim bir kədər var idi. Bunu müəllimlərin hamısı duymuşdu, öz aramızda söhbət edəndə baxırdım ki, hər kəs eyni fikirdədir. Bu kədəri onun ailə vəziyyəti ilə əlaqələndirirdik. Məktəbdə hamımız bilirdik ki, evin bütün ağırlığı Teymurun çiyinlərindədir. Lakin sonralar o, şəhid olanda bu kədər nə kədərmiş, anladıq. Onun şəhid olmasını həm yanğı, həm də qürur hissi ilə qarşıladıq. Teymur sağ qalsaydı, çox gözəl, hər birimizin qürur duyduğumuz bir həkim olacaqdı. Lakin o, ölümü ilə gənclərə nümunə oldu. Məktəbimizdəki şagirdlərə Vətən sevgisini aşıladı.

O müdhiş 20 Yanvar günündə birinci imtahan sessiyasını uğurla başa vuran Teymur doğma kəndinə getmək istəyirdi. İki dostu ilə aerokassadan Naxçıvana bilet alıb geri qayıdarkən elə aerokassanın qabağındaca başından güllə yarası alır. O, xəstəxanaya gətirilir. Həkimlərin yeddi gün yaralını həyata qaytarmaq üçün səylə çalışmalarına baxmayaraq, Teymur həyata gözlərini əbədi yumur. Şəhid tələbə bir neçə gündən sonra Keçili kənd qəbiristanlığında dəfn edilir. Bakı şəhərindəki Şəhidlər Xiyabanında və Şahbuz şəhərindəki Şəhidlər Abidə Kompleksində xatirə lövhəsi var.

Teymur tək Alməmmədovlar ailəsinin deyil, bütün keçililərin yaddaşından silinməyən, unudulmaz 20 Yanvar şəhididir. O təkcə öz ailəsinin deyil, bütövlükdə, Keçili kəndinin övladıdır. Onun itkisinə bütün kənd yandı, sızladı. Günlərlə, aylarla xəstə valideynlərinin təsəllivericilərinə çevrildilər. Lakin bu itki onsuz da sağlamlıqları yerində olmayan ata-ananın qəddini əydi, bu dərd onları için-için yeyib sonlarını gətirdi. Teymurun şəhid olmasından bir neçə il sonra bir-birinin ardınca həyatla vidalaşdılar. Teymur isə onların əbədi qürur yeridir. Çünki onun məzarını ziyarət edən, haqqında oxuyan, öyrənən hər bir məktəbli və gəncə Teymur vətənpərvərlik nümunəsidir.

Teymurun ailəsinə dövlət tərəfindən hərtərəfli dəstək göstərilir. Bu məqsədlə şəhid ailəsi üçün 2010-cu ildə fərdi mənzil də tikilib və hər bir şərait yaradılıb. İndi o evdə şəhidin bacısı Bəsti yaşayır. İllərdir ki, Teymurun bacıları da, onu sevən həmkəndliləri də, ümumilikdə, yüzlərlə şəhidi olan bu xalq tək təsəlli ilə yaşayır. Bu təsəlli şəhidlərmizin Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda həyatlarını itirmələridir. Vətən üçün, təbii ki, şəhid olmağa dəyər. Dünən olduğu kimi, hər birimiz bu gün də, sabah da torpaqlarımızın qorunması, müstəqilliyimizin daimiliyi üçün şəhid olmağa hazırıq. Çünki bu müstəqillik bizə şəhidlərimizin qanından, ümummilli liderimiz Heydər Əliyevin gərgin gündüzlərindən, yuxusuz gecələrindən ərməğandır, əmanətdir.

✍ Mətanət MƏMMƏDOVA

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 49